**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi aşağıdakı vakant olan vəzifələrin tutulması üçün daxili müsahibə**

# ELAN EDİR:

- Hüquq, kadr və icraya nəzarət şöbəsinin Dövlət qulluğu və kadr məsələləri sektorunun məsləhətçisi
- Bakı regional bölməsinin Monitorinq və istehlakçıların hüquqlarının müdafiəsi sektorunun müdiri

Müsahibədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin aparatında və regional bölmələrində inzibati vəzifədə qulluq keçən və ixtisas dərəcəsinə malik dövlət qulluqçusu statusu daşıyan şəxslər iştirak edə bilərlər.

Müsahibədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- ərizə;
- əmək kitabçasının surəti;
- ali təhsil haqqında diplomun surəti (xarici dövlətlərin ali təhsil müəssisələrində təhsil almış şəxslərin ali təhsil haqqında sənədinin və həmin sənədin qanunvericiliyə uyğun olaraq təsdiq edilməsi haqqında müvafiq şəhadətnamənin surəti ilə birlikdə) və ya müvafiq ixtisas üzrə yenidənhazırlanma keçmə haqqında müvafiq sənədin surəti (ali təhsil haqqında diplomun surəti ilə birlikdə);
- kadr uçotunun şəxsi vərəqəsinin surəti (bütün bölmələr üzrə məlumatlar tam olmalı və hazırki dövrü əks etdirməlidir);
- bir ədəd ağ fonda rəngli fotoşəkil;
- son bir ildə intizam tənbehi tədbirinin tətbiq edilməməsi barədə arayış.

**Müsahibədə iştirak etmək üçün ərizələrin qəbulu 11 iyul 2019-cu il tarixdən 24 iyul 2019-cu il tarixdə saat $18^{00}$-dək aparılacaq. Ərizələr şəxsən (bazar ertəsi – cümə günləri saat $09^{00}$-dan $13^{00}$-dək və $14^{00}$-dan $18^{00}$-dək), yaxud poçt vasitəsi ilə təqdim edilə bilər.**

Müsahibə zamanı müsahibədə iştirak edən dövlət qulluqçusunun bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan şəxsi keyfiyyətləri yoxlanılmaqla müvafiq vəzifəyə uyğunluğu müəyyən edilir. Müsahibədə ixtisas dərəcəsi, müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçirilməsi və ixtisasın artırılması da nəzərə alınır.

Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları iştirak edə bilərlər.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinin ikinci hissəsinə əsasən barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə buraxılmırlar.

Namizəd müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə bilərəkdən yanlış məlumatlar verilməsi aşkar edildiyi halda, namizədin müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

Müsahibəyə dair ətraflı məlumat almaq üçün Qida Təhlükəsizliyi Agentliyinin Hüquq, kadr və icraya nəzarət şöbəsinə müraciət oluna bilər.

**Əlaqə telefonu: (+99412 377-00-77, daxili 155)**